**Ramilə Nemət qızı Rəhmanova** [131]

# MƏTN VƏ AKTUAL ÜZVLƏNMƏ

Dilçilər dil sisteminin sintaktik layını potensial (sintaktik) və aktual (suprasintaktik) olmaqla iki yarusa ayırmışlar. Dilçilik elmi yaxın vaxtlara qədər dilimizin potensial imkanlarının tədqiqi ilə məşğul olmuşdur. Alimlərin araşdırmaları göstərir ki, aktual səviyyənin öyrənilməsi də çox vacibdir və müəyyən əhəmiyyətə malikdir. Bu yolla dilimizin kommunikativ imkanlarını müəyyənləşdirmək mümkündür.

K.Abdullayev aktual üzvlənmədən bəhs edərkən cümlənin aktual üzvlənməsinin onun mümkün olan digər üzvlənmələrindən öz funksional yolu ilə fərqləndiyini yazır. Həmçinin müəllif yazır ki, cümlənin aktual üzvlənməsi cümləyə yalnız onun quruluşundan çıxış edərək qiymət vermir. O, bu quruluşun sərhədlərindən kənara çıxır [1, s. 222].

Ə.A.Abdullayev müasir dilçilikdə "cümlənin aktual üzvlənməsi" terminine sinonim kimi "semantik üzvlənmə", "kommunikativ üzvlənmə", "kontekstual üzvlənmə", "tema və rematik üzvlənmə" terminlərinin işlədildiyini, lakin bizim "aktual üzvlənmə" terminindən istifadə etməyin tərəfdarı olduğumuzu yazır [2, s. 29].

Aktual üzvlənmə ilə qrammatik üzvlənmə arasındakı münasibər xeyli müddət dəqiq araşdırılmamışdır. Xüsusi bir təhlil səviyyəsi kimi aktual üzvlənmə cümlənin kommunikativ istiqamətinə qarşı qoyulur. Atual üzvlənmənin mahiyyəti cümlənin leksik, qrammatik və intonasiya baxımından təşkilindən ibarətdir. O, danışanın cümlənin söyləm hissələrinin kommunikativ məqsədyönlülüyündən və mənasından çıxış edərək tərtib edilməsindən asılıdır [3, s. 4].

K.Vəliyev yazır ki, aktual üzvlənmə qrammatik üzvlənməni inkar edə bilməz. Ona görə ki, bunlar ayrı-ayrılıqda dilin öz spesifikasına uyğun zənginliklərə malik olub, ifadə-məzmun planları kimi ortaya çıxır[4, s. 49].

İlk dəfə "aktual üzvlənmə" terminini A.Veyl, J.Ginneken, sonra isə V.Matezius işlətmişdir. A.Veyl 1844-cü ildə hazırladığı "Qədim dillərdə söz sırası" adlı doktorluq dissertasiyasında danışan və dinləyən üçün maraqlı olan fikirlərin cümlənin əvvəlində, ikinci dərəcəli fikirlərin isə sonda gəlməsi iddialarını rədd etmişdir. O, normal nitqdə əvvəl söyləmin çıxış nöqtəsinin, sonra isə əsas məqsədin işləndiyini isbat etmişdir. Bu nəzəriyyəsinin əsasında isə cümlənin aktual üzvlənməsi durur.

Çex dilçisi V.Matezius da aktual üzvlənmə barədə müasir təlimin yaradıcısı kimi şöhrət tapmışdır. O, aktual üzvlənmənin dil hadisəsi olduğunu sübut etmiş, onun bir çox hallarda qrammatik üzvlənmə ilə qarşı-qarşıya durduğunu qeyd etmişdir. V.Matezius və slavyanşünas R.Yakobsonun təşəbbüsü ilə 1926-cı ildə "Praqa dilçilik dərnəyi" yarandı. Bu dərnəkdə toplaşanlar dilə struktur və funksional baxımdan yanaşırdılar.

Aktual üzvlənmə predikativlik aktı ilə sıx əlaqəlidir və onun komponentləri də predikativ münasibətli komponentlərdir. Predikativ münasibət danışan və dinləyənin qarşılıqlı nitqi baxımından cümlənin məzmununu gerçəkliyə istiqamətləndirir. Əgər aktual üzvlənmədə söylənilən məlumatın məqsədyönlüyü aşkarlanırsa, qrammatik üzvlənmədə cümlə üzvlərinin bir-biri ilə bağlılığı əsasında əşya, əlamət və hərəkət arasındakı obyektiv əlaqələr müəyyən olunur.

Aktual üzvlənmənin komponentləri "tema-rema", "əsas(kök)-özək(nüvə)", "leksik mübtəda-leksik xəbər", "köhnə-yeni" kimi fərqli terminlərlə təqdim olunur. Cümlə tema və rema olmaqla iki məna qütbünə ayrılır. Tema cümlə üçün söykəm-istinad hissədir. Rema isə tema haqqında yeni, açım hissədir. Həm tema, həm də rema sualla müəyyənləşdirilir. Sual verilən cümlədə olan informasiyanın bir hissəsi temaya, sual sözə cavab verən informasiya hissəsi isə remaya aid olur.

Məlumat predmeti kimi temanı ifadə etmək üçün əsasən predmet mənalı sözlərdən istifadə edilir. Çox vaxt tema mübtəda və ya müstəqil tamamlıqla ifadə olunur:

Məsələ yalnız oxumaqla bitmir; Rəsulu tanımaq olmurdu və s.

Remanı ifadə etmək üçün isə çox vaxt əlamət mənalı sözlərdən istifadə olunur. Feillər, sifətlər, əlamət adlandıran isimlər belə rolda çıxış edirlər. Bunun üçün də xəbər (onu genişləndirən üzvlərlə birlikdə) remanın əsas ifadə üsuludur:

O olduqca mehribam və qayğıkeş idi; Şəlalə çox kövrək qızdır; Qışın bu soyuq vaxtında düşmən hücum eləməz və s.

Qeyd edildiyi kimi, cümlənin qrammatik üzvlənməsi bazasında aktual üzvlənmə yaranır. Aktual üzvlənmə baxımından cümlənin leksik tərkibinə yanaşanda onun komponentlərinin keyfiyyət fərqi ilə rastlaşılır. Tema özündə verilən məlumatı, yəni ki, oxucuya və yaxud dinləyiciyə müəyyən olan məlum bir hissəni ehtiva edə bilər. Burada informativlik cəhətdən oxucu və ya adresant kodlaşdıran, dincləyici və yaxud adresat isə kodları açan kimi çıxış edir.

Adətən, məlumatın teması verilənlə ifadə olunur. Cümlənin leksik tərkibində verilənlik və yenilik öz əksini tapır. Veriləni göstərən leksik vasitələr vardır. Bunlara 1. şəxs əvəzlikləri,
2. isimlərin işarə, qayıdış və təyini əvəzlikli sözlərlə birləşməsi
3. hər bir situasiyanı təqdim etməyə qadir olan "bu" işarə əvəzliyi aiddir. Nümunələr:
1. "Əyalət şəhərində, balaca otaqda cavan oğlan yuxudan oyandı. O, əsnədi, gərnəşdi, çarpayının önündəki stolun üstünə qoyulmuş saata baxdı" [5, s. 28];

[131] Bakı Dövlət Universisteti, magistrant. rehmanovaramile.2000@gmail.com

Bax bu, Asiya qadınlarına məxsusdur. Onların evlərini ziyarət edən qadınların hansından istəyirsən soruş, onlar hətta bunu da əlavə edirlər ki, bu qadınlar kök və fərasətsizdirlər, qadınlara məxsus olan və onlara xüsusi gözəllik verən incəlikdən və füsunkarlıqdan məhrumdurlar [5, s. 32].
2. Camışları haylayıb suya tökən cavanların hay-küyü sıldırım yarğanlarda əks edir, bu yarğanların ovuqlarındakı quşlar hürküşüb bölük-bölük havaya qalxırdılar[6, s. 8].
Hər doğan hiss insan kimi öz ömrünü yaşayandan sonra ölüb gedir və s.
3. Hər səhər ətrafdan mahnı oxuyan bir səs eşidilirdi. Bu, həsrətdolu bir səs idi
Təhsilimi başa vurduqdan sonra Muğana gəldim və burada işə düzəldim. Qısa bir müddət ərzində iş yoldaşlarıma qaynayıb-qarışdım. Bu mənə görə çox da çətin olmadı

Cümlələrdə veriləni çox zaman tema, yenini isə rema bildirir. Buna baxmayaraq, temanın tərkibinə yeninin elementləri, remanın tərkibinə isə verilənin elementləri daxil ola bilər:

Cahandar ağa dodaqlarını kip qapayıb, dişlərini bir-birinə sıxdı. Onun alnını, bədənini soyuq tər basdı [6, s. 340].

Yuxarıda verilmiş nümunədə "alnını, bədənini" temanın tərkib hissəsidir və özlüyündə yenini təmsil edir.

Cümlə üzvlərinin aktuallaşmasının özünəməxsus qanunauyğunluqları vardır. Aktual üzvlənmə komponentlərinin tərkibinə məhz hansı qrammatik üzvlərin daxil olmasından və bunların məna yükünü aralarında nə cür bölüşdürməsindən asılı olaraq, bu komponentlər arasındakı nisbətə görə sadə nəqli cümlələr üçün bir neçə kommunikativ-sintaktik tip göstərmək mümkündür. İ.Raspapov tema və rema arasındakı nisbətin altı əsas söyləm tipinin olduğunu və bunları nəzərdən keçirməyin məqsədəuyğun olduğunu qeyd edirdi.

Birinci söyləm tipi təkkomponentlidir. Tema həqiqətin özüdür, subyektiv qavramaya görə təsəvvür edilir və qrammatik üzvlərlə ifadə olunmur. Buna görə də bu söyləm tipinə sıfır əsaslı söyləm də deyilir. Temanın leksem tərkibi təsviri xarakter daşıyır. Rema isə qrammatik üzvlərlə ifadə olunur, həqiqətə istinad edir və ondan xəbər verir. Birinci tip söyləmin məzmunu həqiqəti təsdiq etməkdən ibarətdir. Məsələn:

Yazın ilk ayı idi. Otların və çiçəklərin ətri bir-birinə qarışmışdı

Cümlələr hər zaman tema və remaya görə üzvlənmirlər. Sıfır temalı cümlə tipləri də vardır ki, bunlar kommunikativ üzvlənməyən cümlələr də adlanır. Belə cümlələrdə məlumat predmeti, çıxış nöqtəsi olmur. O təsəvvür olunur. Belə cümlələrin də bütün tərkibi kompleks remanı təşkil edir. Bu cür cümlələrin məqsədi hər hansı bir halın mövcud olması və yaxud yaranması haqqında məlumat verməkdir.

İkinci söyləm tipində tema hər hansı bir faktın baş verdiyi şəraiti göstərir, zaman və yaxud yer zərfliyi ilə ifadə olunur. Cümlənin qalan üzvlərini rema təşkil edir və qeyd olunan şərait daxilində baş verən faktın real məzmununu açır. Bu söyləm tipində həm tema, həm də rema qrammatik üzvlərlə ifadə edildiyinə görə o, cütüzvlü (üzvlənən) hesab olunur:

a) Tema zaman və ya yer zərfliyi;

Gecələr dərslərimi oxumaqla məşğul oluram

b) Tema zaman zərfliyi-yer zərfliyi;

"Əkinçi" nin nəşrində sonra Azərbaycanda müxtəlif qəzet və jurnallar nəşr olunmağa başlandı.

Söyləmin üçüncü tipində tema şəxs və ya əşyanı adlandırır, göstərir. Həmin şəxs və ya əşya haqqında məlumatı isə rema verir. Bu tip söyləmlərdə tema mübtəda( mübtəda qrupu) və ya tamamlıqla təmsil olunur. Rema isə xəbər qrupu ( feili və ya ismi) və yaxud mübtəda-xəbər olur. Üçüncü tip söyləmin məzmunu şəxs və ya əşya haqqında məlumat verməkdən ibarətdir. Nümunələr:

a) tema mübtəda, rema feili xəbər;

Beş nəfər döyüşçü silahlandılar; Həsən fabrik tikintisində işləyir

b) tema mübtəda, rema ismi xəbər;

Gülər ağıllı və çalışqan şagirddir; Aytac öz dərsləri ilə məşğul idi

c) tema tamamlıq, rema mübtəda+xəbər;

Onu ağlamaq tutdu;

Söyləmin dördüncü tipində tema hər hansı şəxs və yaxud əşyanı göstərir. Həmçinin tema həmin şəxs və ya əşyanın real həqiqət nümayəndəsi kimi iştirak etdiyi şəraitə də işarə edir. Bu konkret şəraitin daxilində həmin şəxs və ya əşya haqqında xəbəri isə rema verir.

Dördüncü tip söyləmlər ikinci və üçüncü tip söyləmlərin birləşməsindən yaranır və onların da xüsusiyyətlərini ifadə edir. Bu söyləmlərin məzmunu hər hansı şərait daxilində şəxs və ya əşya haqqında məlumat verməkdən ibarətdir. Nümunələr:

a) tema zaman (və ya yer zərfliyi) + mübtəda

Bir azdan sonra qapıdakı maşın işə düşdü; Kəndimizdən duman çəkilməmişdi; Bir qədər keçəndə sonra qoşun şəhərdən çıxıb hərəkət etməyə başladı

c) tema zaman ( və ya yer zərfliyi) +tamamlıq

Dərsdən sonra uşaqları tədbirə apardılar; Bir azdan sonra kənddə əhvalatı hamı bilirdi; Evdə onu tanımaq olmurdu və s.

Beşinci tip söyləmlərdə tema həqiqətdə ola bilən hər hansı bir faktı göstərir və müxtəlif qrammatik üzvlərdən ibarət olur. Temada olmayan müəyyən bir qrammatik üzvlə rema təmsil olunur. Rema həmçinin temanın göstərdiyi faktı dəqiqləşdirir. Beşinci tip söyləmlərin məzmunu hər hansı bir faktı dəqiqləşdirməkdən ibarətdir. Nümunələr:

a) temada qeyd olunmuş fakt remada zaman və yaxud yerinə görə dəqiqləşdirilir:
O, tamam altı il həbsxanada dustaq qaldı; Hələ sən dərslərini sonra oxuyarsan; O, dostları ilə düz məktəbin həyətinə gəlib çıxır və s.
b) temada verilmiş faktın xarakteri və ya icra üsulu remada dəqiqləşdirilir:
Cavid əsəbi halda danışırdı; Nəzarətçilər imtahana daha tez çatdılar və s.
c) temada verilmiş faktın subyekt və yaxud obyekti remada göstərilir:
Bir gün Oğuz oturarkən üstünə düşmən gəldi
d) temada verilmiş faktın səbəb və nəyə əsaslandığı remada göstərilir:
Bu kitabları sənin üçün alıblar; O, qorxduğuna görə ağlayırdı və s.

Söyləmin altıncı tipində tema mübtəda, tamamlıqla təmsil olunur və bir-birinə qarşı münasibətdə olan şəxs və yaxud əşyaları göstərir. Bu münasibəti isə konkret şəkildə rema müəyyən edir, onun real məzmununu açır və sadə feili xəbərlə ifadə olunur. Temada olan qrammatik üzvlər isə aşağıdakı ardıcıllıqla sadalanır:
a) məlumat mübtədadan tamamlığa doğru olaraq açılır:
O, bütün bu söhbətlərə mat qalmışdı; Qəfil hücum etmək hər şeyi bir anda dəyişdi; Bu olanlar onlara yuxu kimi gəlirdi və s.
b) məlumat tamamlıqdan mübtədaya doğru açılır:
Mənə bu sözlər xoş gəlmədi; Həmin hadisədən dostum lap çox qorxmuşdu; Məhəmmədi bacısı evlərinə qonaq aparmışdı və s.

Məqalədən aydın olur ki, aktual üzvlənmə dilçilikdə cümlənin kommunikativ xüsusiyyətlərini təhlil edən mühüm bir anlayışdır. Bu konsepsiya, cümlənin mövzusu (tema) və məlumatı (rema) arasındakı əlaqəni açıqlayır. Tema cümlənin əvvəlində verilən, artıq məlum olan məlumatı ifadə edərkən, rema yeni, əlavə məlumatı təqdim edir. Aktual üzvlənmə, qrammatik üzvlənmədən fərqli olaraq, yalnız cümlənin quruluşunu deyil, həm də kommunikativ məqsədləri nəzərə alır. Həmçinin, aktual üzvlənmə cümlələrin müxtəlif sintaktik tipində təzahür edir, bu da dilin zənginliyini və kommunikativ məqsədini təmin edir. Dilin bu aspektini öyrənmək, onun istifadəsi və ifadə imkanlarını daha yaxşı anlamağa imkan verir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayev K.M., Məmmədov A.Y. və başqaları. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Mütərcim, 2012, 606 s
2. Abdullayev Ə. Aktual üzvlənmə və mətn. Bakı: Xəzər Universiteti, 1998, 190 s.
3. Əlizadə F. Cümlənin aktual üzvlənməsi. Bakı: Bakı Universiteti, 1998, 112 s.
4. Vəliyev K.N. Cümlənin semantik üzvlənməsi: Azərbaycan dilçiliyi məsələləri. Bakı: ADU, 1981

***Bədii ədəbiyyat***

5. Abdulla bəy Divanbəyoğlu. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 184 s.
6. İsmayıl Şıxlı. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı: Şərq- Qərb, 2005, 400 s.

**Ключевые слова**: актуальное членение, синтаксический уровень, тема и рема, коммуникативная цель, грамматическое членение
**Key words**: actual segmentation, syntactic level, theme and rheme, communicative purpose, grammatical segmentation

## Текст и актуальная членимость

**Резюме**

Из статьи видно, что актуальная членимость является важным понятием в лингвистике, анализирующим коммуникативные особенности предложения. Эта концепция объясняет связь между темой (тема) и информацией (рема) предложения. Тема выражает уже известную информацию и обычно размещается в начале предложения, в то время как рема представляет новую, дополнительную информацию. Актуальная членимость, в отличие от грамматической, учитывает не только структуру предложения, но и его коммуникативные цели. Также актуальная членимость проявляется в различных синтаксических типах предложений, что способствует богатству языка и его коммуникативной направленности. Изучение этого аспекта языка помогает лучше понять его использование и выразительные возможности.

## Text and current membership

**Summary**

The article highlights that topicalization is an important concept in linguistics that analyzes the communicative features of a sentence. This concept explains the relationship between the subject (theme) and the information (rheme) of a sentence. The theme expresses known information and is typically placed at the beginning of the sentence, while the rheme presents new, additional information. Unlike grammatical membership, topicalization considers not only the structure of the sentence but also its communicative goals. Additionally, topicalization appears in various syntactic types of sentences, which ensures the richness of the language and its communicative purpose. Studying this aspect of language helps to better understand its usage and expressive possibilities.

**Rəyçi:** dos. Fikrət Əlizadə